No: 02 2025
https://doi.org/10.64400/ndueej.042
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# SOSİO-EMOSİONAL KOMPETESİYALARIN AKADEMİK GÖSTƏRİCİLƏRƏ TƏSİRİ

**Xavərxanım Bakıxanova**

https//orcid.org/0000-0002-3031-5770

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

Yazışılan müəllif: khaverbakikhanova@bsu.edu.az, Tel; +994 555429774

## XÜLASƏ

Məlumdur ki, akademik göstəricilər təhsilaların bilik səviyyəsini müəyyən edir. Lakin araşdırmalar sübut edir ki, akademik göstəricilərə təsir edən müəyyən amillər təhsilalanın bilik səviyyəsini təyin etməkdə ziddiyyətli məqamları ortaya çıxarır. Bildiyimiz kimi təhsil sistemimizdə daha çox konkret biliklərin təhsilalana mənimsədiməsi əsas yeri tutur. Dəqiq elmlərin tədrisinə daha çox vaxt ayıraraq təhsilalanların maariflənməsinə daha çox yatırım olunur. Buna baxmayaraq bəzi təhsilalanlar verilən informasiyaları daha uğurlu dərk etsə də, bir çox təhsilalan tapşırıqların mənimsənilməsinə daha çox vaxt ayırmasına baxmayaraq daha aşağı nəticə göstərə bilir. Digər bir misal olaraq qeyd edə bilərik ki, bəzən özü ev şəraitində imtahanlarına hazırlaşan təhsilalan bir neçə müəllim yanında hazırlaşan təhsilalandan daha yüksək akademik nəticəyə sahib olur. Belə hallarda təsadüfi deyil ki, akademik göstəricilərinin çox yuxarı olmasına baxmayaraq bir çox məzunlar iş həyatlarında onlardan gözlənilən mövqeyə çata bilmirlər. Bəzən ümumiyyətlə iş tapa bilmirlər. Bu kimi bir neçə ziddiyyətli məqamlar təhsil işçilərini, pedaqoq və psixoloqları düşünməyə vadar edir. Təhsilalanların tədris proqramını nə dərəcədə mənimsədiyini təyin etmək üçün əsas vasitə akademik göstəricilərdir. Akademik göstərici təhsilalanın bilik səviyyəsinin müəyyən etmək üçün vacib və əsaslı sübutdur. Akademik göstəricilərə bir çox amillər təsir edir. Nümunə olaraq şəxsiyyət quruluşu, öyrənmə vərdişləri, motivasiya, valideynlərin münasibəti, sosial-iqtisadi vəziyyəti və s. qeyd edə bilərik. Araşdırmalar sübut edir ki, akademik göstəricələrə təsir edən ən güclü amillərdən biri sosio-emosional kompetensiyalardır. Məqalənin əsas məqsədi sosio-emosional kompetensiyalar ilə akademik göstəricilər arasındakı əlaqəni araşdırmaqdır.

**Açar sözlər:** *sosio-emosional kompetensiyalar, sosio-emosional öyrənmə, akademik göstəricilər, emosional intellekt, emosiya*

## GİRİŞ

Valideynlər hər zaman, bacardıqları qədər övladlarına daha yüksək səviyyədə təhsil verməyə çalışırlar. Təbii ki, təhsil demək olar ki, bir çox uğurun açarıdır. İnsanlar həyatlarının çox uzun dövrünü təhsil müəssisələrində keçirirlər. İlk öncə məktəbəqədər təhsil, sonra orta məktəb, daha sonra ali təhsil müəssisələri təhsilalanların şəxsiyyət kimi formalaşması üçün lazım olan bilik, bacarıq və vərdişləri mənimsətməyə çalışırlar.

Təəssüflər olsun ki, təhsil sistemimizdə daha çox konkret biliklərin təhsilalana mənimsədiməsi əsas yeri tutur. Dəqiq elmlərin tədrisinə daha çox vaxt ayıraraq təhsilalanların maariflənməsinə daha çox yatırım olunur. Buna baxmayaraq bəzi təhsilalanlar verilən informasiyaları daha uğurlu dərk etsə də, bir çox təhsilalan tapşırıqların mənimsənilməsinə daha çox vaxt ayırmasına baxmayaraq daha aşağı nəticə göstərə bilir. Digər bir 1issal olaraq qeyd edə bilərik ki, bəzən özü ev şəraitində imtahanlarına hazırlaşan təhsilalan bir neçə müəllim yanında hazırlaşan təhsilalandan daha yüksək akademik nəticəyə sahib olur. Belə hallarda təsadüfi deyil ki, akademik göstəricilərinin çox yuxarı olmasına baxmayaraq bir çox məzunlar iş həyatlarında onlardan gözlənilən mövqeyə çata bilmirlər. Bəzən ümumiyyətlə iş tapa bilmirlər. Bu kimi bir neçə ziddiyyətli məqamlar təhsil işçilərini, pedaqoq və psixoloqları düşünməyə vadar edir.

Bildiyimiz kimi təhsilalanların tədris proqramını nə dərəcədə mənimsədiyini təyin etmək üçün əsas vasitə akademik göstəricilərdir. Akademik göstərici təhsilalanın bilik səviyyəsinin müəyyən etmək üçün vacib və əsaslı sübutdur. Akademik göstəricilərə bir çox amillər təsir edir. Nümunə olaraq şəxsiyyət quruluşu, öyrənmə vərdişləri, motivasiya, valideynlərin münasibəti, sosial-iqtisadi vəziyyəti və s. qeyd edə bilərik. Araşdırmalar sübut edir ki, akademik göstəricələrə təsir edən ən güclü amillərdən biri sosio-emosional kompetensiyalardır.

Akademik göstəricilər təhsilalanın sosio-emosional vəziyyətindən birbaşa asılıdır. Araşdırmalar göstərir ki, ailədə sağlam mühit mövcud olmayan, təlaş içərisində təhsil almağa çalışan, valideynləri vəfat edən, sosial-iqtisadi çətinliklərdən əziyyət çəkən və s. təhsilalanlarda tədris prosesinə daha çox vaxt ayırsa belə akademik göstəricisinin gözlənilən qədər yüksək olmadığı müşahidə olunur. Bu cür təhsilalanların sosio-emosional kompetensiyalara yiyələnməyə daha çox ehtiyacı var. Sosio-emosional kompetensiyalara yiyələnmiş təhsilalanların isə təhsil həyatları boyunca uğur əldə etmə potensiallarının daha yüksək olduğu müşahidə olunur.

Çox zaman sosio-emosional kompetensiyaları yanlış olaraq psixoterapiya üsulu zənn edirlər. Sosio-emosional kompetensiyalar sadəcə insanlara özlərini tanıma, problem həll etmə, emosioyalarını idarəetmə və s. bacarıqlarını inkişaf etdirmək üçün tətbiq olunur.

Sosio-emosional kompetensiyalar XX əsrin 90-cı illərindən elmi tədqiqat mövzusu olmasına baxmayaraq hələ də araşdırılır və müəyyən faktlar ortaya çıxır. Tədqiqatlar nəticəsində məlum olur ki, sosio-emosional kompetensiyalar ilə akademik göstəricilər arasında dərin əlaqə mövcuddur. Sosio-emosional kompetensiyaların tədris prosesində mənimsədilməsi nəticəsində təhsilalanlarda müxtəlif situasiyalarda problem həll etmə bacarıqlarının inkişafına, təhsilalanın öz hislərinin fərqində olub daha məntiqli qərarlar qəbul etməsində aparıcı rol oynayır[5].

Sosio-emosional kompetensiyalar şəxsiyyətlərarası və qruplararası sağlam və faydalı əlaqələr qurmaq, aydın ünsiyyət, dinləmək, başqaları ilə əməkdaşlıq etmək, yersiz sosial təzyiqlərə qarşı durmaq, konfliktli situasiyalarda konstruktiv danışıqlar aparmaq, lazım olduqda kömək axtarmaq və kömək təklif etmək bacarığı hesab olunur. Bir sözlə, sosio-emosional kompetensiyalar təhsilalanların təhsil mühitində, iş yerində və daha geniş icmalarda uğur qazanması üçün inkişaf etdirməli olduğu vacib bacarıqlardır.

Araşdırmalar sübut edir ki, bir çox sosio-emosional kompetensiyalara yiyələnmiş təhsilalanların akademik göstəriciləri yüksək olur. Akademik uğur bir insanın təhsil sahəsində hədəflərinə nə ölçüdə çatdığını təmsil edir. Akademik uğur təhsilalanın təhsil müəssisəsinə adaptasiya olmasının da bir göstəricisidir.

Uğur anlayışı "istənilən bir nəticəyə nail olmaq" olaraq ifadə edilməktədir. Uğur insanın anadangəlmə bir axtarışını təmsil etməktədir. Hər bir insan bu həyatda uğur qazanmaq istəyir. Məqsədlərimizə nail olmadığımız halda isə müəyyən daxili məyusluq müşahidə olunur. Sinir sisteminin tipindən asılı olaraq hər bir şəxs uğursuzluğa fərqli cür reaksiya nümayiş etdirir. Gənclərimizin gələcəkdə rastlaşacaqları uğursuzluqlara qarşı daha tolerantlı ola bilmələri üçün sosio-emosional kompeteniyalara yiyələnmələri vacib məsələdir. Sosio-emosional kompetensiyalar daha sağlam və daha ədalətli cəmiyyət üçün gəncləri gücləndirə bilər[1].

Sosio-emosional kompetensiyaların əsasını 4 bacarıq təşkil edir:




**Şəkil 1.1. Sosio-emosional kompetensiyaların əsasını təşkil edən 4 bacarıq**

Sosio-emosional kompetensiyalar insan həyatında vacib bir yerə sahibdir. Sosio-emosional kompetensiyalar həm insanlararası münasibətləri, həm də şəxsin öz hislərini idarəetmə bacarığını formalaşdırır. Nəsildən-nəsilə bilgi ötürən təhsil müəssisələri təhsilalanların akademik göstəriciləri ilə birliktə onların sosio-emosional vəziyyətlərinə də hər zaman nəzər yetirməlidirlər.

Sosio-emosional kompetensiyaların tədris mühitində təhsilalanlara mənimsədilməsi üçün müxtəlif proqramlar irəli sürülsə də ən effektivlisi sosio-emosional öyrənmə (SEL) proqramı hesab olunur. Bildiyimiz kimi insanların həyatlarında daim mövcud olan problemlər, çətinlikləri tamamilə aradan qaldırmaq mümkünsüzdür. Təhsilalanların həyatında mövcud olan problemlər təhsil həyatına birbaşa təsir göstərirır. Sosio-emosional öyrənmə proqramı vasitəsilə təhsilalanlara çətinliklərlə mübarizə aparmaq və ən optimal şəkildə həll etmək bacarığı öyrədilir. Sosio-emosional öyrənmə tətbiq olunan müəssisələrdə təhsilalanların akademik uğurlarının artırdığı müşahidə olunur.

Araşdırmalar sübut edir ki, sosio-emosional öyrənmə akademik uğuru təxmin edə bilir. Digər bir ifadəylə sosio-emosional öyrənmə akademik uğurun göstəricisi ola bilər. Sosio-emosional öyrənmə ilə akademik göstəricilər arasında vəhdət mövcuddur. Buna görə də bir çox araşdırma akademik bacarıqların inkişafı ilə sosio-emosional öyrənmə arasındakı münasibəti təhlil etməyə yönəlmişdir.

Sosio-emosional öyrənmə tətbiq olunan təhsilalanlarda aşağıdakı hallar müşahidə olunur[1]:

**Bacarıqlar**

- Demokratik dəyərlərə daha güclü sadiqlik
- Məktəbə və öyrənməyə daha müsbət münasibət
- İnkişaf etmiş etik münasibətlər və dəyərlər
- Daha yüksək akademik motivasiya və təhsil gözləntiləri
- Müəllimlərə daha çox inam və hörmət
- Davranışın nəticələrinin daha yaxşı başa düşülməsi

**Davranışlar**

- Daha az narkotik, maddə asılılığı və cinayət davranış
- İntihar hallarının azalması
- Müsbət fəaliyyətlərdə daha çox iştirak (idman, rəsm, musiqi və s.)
- Daha az məzuniyyət və fasilələr
- Aqressiyanın, şəxsiyyətlərarası zorakılığın azalması
- Daha çox dərsdə iştirak və daha yüksək davamiyyət

**Məhsuldarlıq**

- Zamanla daha yüksək nailiyyətlər
- Öyrənməyi öyrənmək bacarığı
- Problemin daha yaxşı həlli və planlaşdırılması

**Şəkil 2. Sosio-emosional öyrənmə tətbiq olunan təhsilalanlarda müşahidə olunan hallar**

Sosio-emosional öyrənmə təhsil həyatında nəzəri biliklərin praktikada icrası üçün plan təqdim edir. Təhsilalanın həyatında problemlərin olması tədris prosesində müxtəlif çətinliklərə səbəb olur. Buradan da belə nəticəyə gəlirik ki, təkcə biliklərin öyrənilməsi arzulanan nəticəni vermir. Mütləq sosio-emosional bacarıqları da inkişaf etdirmək lazımdır.

Bəzi araşdırmalara görə təhsilalanın akademik göstəricisinə müəllim, həmyaşıdlar, valideynlər arasındakı münasibətlər birbaşa təsir göstərir. Bu münasibətlər sosio-emosional öyrənmənin də əsas tədqiqat sahəsidir. Sosio-emosional öyrənmə bacarıqlarının inkişaf etməsində ailə, mühit və şəxsi amillər vacib rol oynayır.

Orta təhsil müəssisələrində akademik uğur aşağı emosional zəka ilə əlaqələndirilir. Aşağı emosional zəkaya sahib təhsilalanların məktəb gözləntilərini təsirli bir şəkildə yerinə yetirmədiyi düşünülür. Sosio-emosional bacarıqları mənimsəmədən məktəbəqədər təhsil müəssisəsindən orta təhsilə keçən uşaqlarda özlərini ifadə etmək, əsəblərini idarə etməkdə, əşyalarını paylaşmaqda və s. çətinlik çəkə bilərlər. Bu vəziyyət də təbii ki, akademik və sosial nəticələrin aşağı düşməsinə səbəb ola bilər.

Sosio-emosional kompetensiyalar ilə akademik uğur arasındakı münasibətin əsasını emosional intellekt təşkil edir. Sosio-emosional kompetensiyalar ilə akademik uğur arasındakı münasibətləri ələ alan çalışmalarda daha yüksək emosional intellektin daha az stresslə əlaqəli olduğu göstərilməktədir. Eyni zamanda sinifin emosional iqlimi də akademik uğura təsir göstərir.

Sosio-emosional öyrənmənin əsasını 5 komponent təşkil edir:




**Şəkil 3.Sosio-emosional öyrənmənin əsasını təşkil edən komponentlər**

Özünü tanıma təhsilalanın hislərini tanıması və ifadə edə bilməsi üçün vacib komponentdir. Eyni zamanda təhsilalanın öz güclü yönlərinin fərqində olması nəticəsində daha özgüvənli olmasının şahidi oluruq. Təhsilalanlar üçün xüsusilə ibtidai sinif dövründən etibarən özünü tanımanın mənimsədilməsi akademik göstəricilərinə birbaşa təsir göstərir.

Sosial fərqindəlik vasitəsilə təhsilalanlar empatiya qurmağı, ətrafdakı şəxslərə hörmət qoymağı öyrənir. Sosio-emosional öyrənmənin bu aspekti başqaların hislərini anlama, eynilik və fərqlilikləri təqdir etməyi aşılayır. Xüsusilə uşaqlar daim özlərini və başqalarını başa düşməyə çalışırlar ki, bu komponent vasitəsilə təhsilalanlar situasiyaları düzgün qiymətləndirə bilərlər.

Məsuliyyət hissi ən vacib komponentlərdən biridir. Məsuliyyət hissinin vasitəsilə təhsilalanlar tapşırıqlarına, davaranışlarına qarşı daha məsuliyyətli olurlar ki, bu da akademik göstəricilərin təyin olunmasının əsasını təşkil edir.

Özünü idarəetmənin əsasını qıcıqlandırıcıların və stressin təsirinə nəzarət etmə, motivasiya və hədəf təyin etmək təşkil edir. Adından da göründüyü kimi akademik uğurun əsasını təşkil edən nüanslar bu komponentdə toplanmışdır.

Şəxsiyyətlərarası münasibətlər təhsilalanlarda mütləq inkişaf etdirilməlidir. Söhbətə başlamaq və onu davam etdirmək, dinləmək, tərifləmək, tənqid etmək, kömək etmək, kömək istəməyi bacarmaq və s. mütləq şəkildə təhsilalanlara bu bacarıqlar mənimsədilməlidir ki, qruplara daha tez adaptasiya ola bilsinlər.

Sosio-emosional öyrənmə təhsilalanların akademik performansları ilə birlikdə həyat boyu öyrənmə texnikası inkişaf etdirməkdə əhəmiyyətli rola sahibdir. Zins tərəfindən həyata keçirilən müxtəlif tədqiqatlarda sosio-emosional öyrənmənin təhsilalanlarda sosio-emosional inkişafı ilə bərabər ruh sağlığını da yaxşılaştırdığı və akademik uğura yol açdığı məlum olur. Sosio-emosional öyrənmənin tətbiq olunması ilə təhsilalanlarda akademik uğurlarının artması ilə yanaşı şəxsi həyatlarında da daha müsbət hadisələrin baş verməsi müşahidə olunur[3].

Araşdırmalar göstərir ki, sosio-emosional öyrənmə yalnız təhsilalanlara deyil, müəllimlərə və ya müəllimlik ixtisasında təhsilalan son kurs tələbələrinə də mütləq tətbiq olunmalıdır. Müəllimlik ən stressli peşələrdən biri hesab olunur. Tədqiqatlar nəticəsində məlum olur ki, stressli müəllimlər stressli təhsilalanlara sahib olurlar. Təhsil mühitində stress sirayət edir. Məlum olur ki, müəllimlər təhsilalanların

sosio-emosional tələblərini nəzərə almadıqlarında, müəllim-təhsilalan arasında qızıl orta xətt qorunmaqla mehriban, səmimi münasibət olmadığı təqdirdə də akademik göstəricilərinin aşağı olması müşahidə olunur.

Sosio-emosional kompetensiyaları təhsilalanlara mənimsətmək üçün bir neçə üsuldan istifadə etmək mümkündür:

- İfadələr, rəsmlər, video və səs yazılarından istifadə etməklə
- Debatlar, qrup tapşırıqları ilə
- Hər həftə bir və ya bir neçə sosio-emosional kompetensiya üzərində təhlillər aparmaq
- Təhsilalanlara evdə valideynləri ilə birlikdə həyata keçirmək üçün müəyyən tapşırıqlar vermək
- Müəllimlər anlayışların daha yaxşı mənimsədildiyindən əmin olmaq üçün təhsilalanlarla yoxlanış keçirmək
- Fürsətlər tanımaq və müsbət davranışlar nəzərə alınaraq mükafatlandırma həyata keçirmək

Təbii ki, hər şey ailədə başlayır. Sosio-emosional kompetensiyaların mənimsədilməsində valideynlərin rolu əvəzsizdir. Sosio-emosional kompetensiyaları təhsilalanların gündəlik həyatlarında icra edə bilməsi üçün müəyyən zaman lazımdır. Təhsil müəssisələrində öyrədilən anlayışlar mütləq şəkildə valideynlərlə də təhlil olunmalı və tapşırıqlar icra olunmalıdır. Lakin bəzi ailələrdə bunu icra etmək mümkün olmur. Valideynlərin fərqli dünyagörüşləri, həyata baxışları, övladları ilə münasibətləri, emosional amillərə yanaşmaları sosio-emosional kompetensiyaları təhsilalana mənimsətməkdə müxtəlif ziddiyyətləri ortaya çıxarır.

Qeyd olunanlardan da məlum olduğu kimi akademik göstəricilər təhsilalanların bilik, bacarıqları haqqında müəyyən qədər informasiya versə də müxtəlif amillərin təsiri nəticəsində reallığı tam əks etdirmir. Təhsilalanların hər biri fərqli ailə tərbiyəsinə, ailə mühitinə, sosial-iqtisadi vəziyyətə sahibdir. Məlumdur ki, hər bir ehtiyacı təmin olunan təhsilalanla ailənin yükü çiyinlərinə düşmüş təhsilalanın akademik göstəricilərini müqayisə etmək düzgün nəticə verməyəcək. Bu kimi amillər nəzərə alınmaqla təhsil müəssisələrində sosio-emosional kompetensiyaların mənimsədilməsi ilə təhsilalanlara mövcud problemlərini doğru qiymətləndirməklə müəyyən uğurlar əldə etməyə çalışılır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Aydoğan, R.(2023). Sosyal Duygusal Öğrenme ve Akademik Başarı. *Sosyal ve Duyuşsal Öğrenme (Kuramdan Uygulama)*, Efe Akademi, 329-348.
2. Elias, M. (1997). Promoting social and emotional learning: Guidelines for educators. *Chicago, IL: Association for Supervision and Curriculum Development*
3. Zins, J.(2007). Social and emotional learning: Promoting the development of all students. *Journal of Educational and Psychological consultation*, 17(2-3), 233-255.
4. https://theeducationhub.org.nz/what-is-social-and-emotional-competence/
https://tophat.com/glossary/s/social-emotional-competencies